**UOT 159.9**

***Gülnarə Həmzəbəyovna Əlixanova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0002-5241-0250*

# ÜNSİYYƏT VƏ ONUN SOSİAL-PSİXOLOJİ MAHİYYƏTİ

***Гюльнара Гамзабековна Алиханова***
*доктор философии по психологии*
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ОБЩЕНИЕ И ЕГО СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ СУЩНОСТЬ

***Gulnara Hamzabayovna Alikhanova***
*doctor of philosophy in psychology*
*senior lecturer of*
*Azerbaijan State Pedagogical University*

# COMMUNICATION AND ITS SOCIO-PSYCHOLOGICAL ESSENCE

**Xülasə.** Məqalədə ünsiyyətin tarixin bütün dövrlərində insanların həyatında müstəsna əhəmiyyət kəsb etməsi problemi açıqlanır. Bu gün insanlar məhz təhsilin və qarşılıqlı ünsiyyətin vasitəsi ilə texnologiyaları çevik şəkildə mənimsəyir, əmək bazarında layiqli yer tutur və ömür boyu bu prosesə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı qazanırlar. Bundan başqa, ünsiyyət prosesində insanların nəinki mühit haqqında məlumat əldə etməsi, eyni zamanda, müxtəlif adət və ənənələrə yiyələnməsilə real varlığın dərk edilməsinə xüsusi istiqamət verməsi məsələləri də müəyyənləşdirilir.
***Açar sözlər:*** *psixi proseslər, dinamika, informasiya mübadiləsi, pedaqoji ünsiyyət, təşəbbüskarlıq, qeyri-verbal kommunikasiya, fərdi xüsusiyyətlər*

**Резюме.** В статье описывается, как определяется проблема, заключающаяся в том, что общение имело исключительное значение в жизни людей во все исторические периоды. Сегодня именно благодаря образованию и взаимодействию люди быстро осваивают технологии, занимают достойное место на рынке труда и имеют возможность присоединиться к этому процессу на всю жизнь, выбрать здоровый образ жизни и правильное отношение к окружающей среде. Кроме того, в процессе общения люди не только узнают об окружающей среде, но и уделяют особое внимание восприятию реального существования, осваивая различные обычаи и традиции.
***Ключевые слова:*** *психические процессы, динамика, информационный обмен, педагогическое общение, инициативность, невербальное общение, индивидуальные особенности*

**Summary.** The article describes how the problem is determined by the fact that communication has an exceptional meaning in the lives of people in all historical periods. Today, thanks to the education and interaction of people, they quickly assimilate technology, occupy a worthy place in the labor market and have the opportunity to join this process for the rest of their lives, to choose a healthy and healthy way of life. Besides, in the process of communication, people not only learn about the environment, but also pay special attention to the perception of the real being, assimilating different customs and traditions.
***Key words:*** *mental processes, dynamics, information exchange, pedagogical communication, initiative, non-verbal communication, individual characteristics.*

İnsanın hər cür fəaliyyətində ünsiyyət ən zəruri şərt hesab olunur. Ünsiyyət olmadan insanların birgə fəaliyyəti həyata keçirilməsi mümkün deyildir. Ünsiyyət və onun sosial-psixoloji mahiyyətinin öyrənilməsi məqsədilə aparılan şəxsiyyətlərarası ünsiyyət sistemi problemi D. Mayers, V.N. Panferov, S.L. Rubinşteyn, L.S. Vıqotski, Y.İ. Kolominski, R.S. Nemov, A.A. Leontyev, B.F. Lomov, Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, R.İ. Əliyev və başqalarının araşdırdıqları elmi-tədqiqat sahələrindəndir.

S.L. Rubinşteyn ünsiyyəti "insanların bir-birini anlaması və başa düşməsi prosesi", L.S. Vıqotski "fikirlərin və təəssüratların başqalarına verilməsi prosesi", Y.L. Kolominski isə "insanların başqalarına olan tələbatı" hesab etmişlər (1.s.87).

Psixoloji-pedaqoji baxımdan insanın özünü dərk etməsi, öz "mən"inə nəzər salması, özünü başqaları ilə müqayisə edərək qiymətləndirməsi ünsiyyət prosesinin məhsuludur. İnsan bunları yalnız başqaları ilə ünsiyyət prosesində dərk edir.

Müasir pedaqoji-psixoloji ədəbiyyatda ünsiyyətin üç mühüm cəhəti qeyd olunur: 1) ünsiyyət informasiya mübadiləsi kimi (ünsiyyətin kommunikativ tərəfi); 2) ünsiyyət qarşılıqlı təsir prosesi kimi (ünsiyyətin interaktiv tərəfi); 3) ünsiyyət insanların bir-birini qavraması, anlaması kimi (ünsiyyətin perseptiv tərəfi).

Ünsiyyətin özünəməxsus növləri vardır: maddi ünsiyyət (əşyalar və fəaliyyət məhsullarının mübadiləsi); koqnitiv ünsiyyət (bilik mübadiləsi); kondision ünsiyyət (psixi və fizioloji vəziyyətin mübadiləsi); motivlərlə bağlı ünsiyyət (təhriklərin, motivlərin, maraqların, tələbatların mübadiləsi); işgüzar fəaliyyətlə bağlı ünsiyyət (iş, əməliyyat, bacarıq və vərdişlərin mübadiləsi).

Bioloji ünsiyyət isə orqanizmi mühafizə etmək, qorumaq, saxlamaq və inkişaf etdirməklə bağlı ünsiyyətdir. Sosial ünsiyyət şəxsiyyətlərarası təması, münasibətləri yaratmaq və inkişaf etdirmək, fərdin şəxsi yüksəlişini genişləndirmək və möhkəmləndirmək məqsədi güdür (2.s.46).

Ünsiyyət psixologiyasında mütəxəssislərin diqqətini cəlb edən prinsipial məsələlərdən biri ünsiyyətlə fəaliyyətin vəhdəti məsələsidir. Bu məsələyə psixoloqların yanaşma tərzi müxtəlifdir. Bəzən fəaliyyət və ünsiyyətə yanaşı şəkildə mövcud olan proses kimi deyil, insanın sosial mövcudluğunun, onun həyat tərzinin iki tərəfi kimi baxılır (B.F. Lomov). Başqa bir halda ünsiyyət fəaliyyətin müəyyən sahəsi kimi başa düşülür (A.N. Leontyev). Bəziləri isə ünsiyyəti fəaliyyətin xüsusi növü kimi şərh edirlər (A.A. Leontyev).

Psixoloqların fikrinə görə, ünsiyyətin köməyi ilə fəaliyyət təşkil olunaraq zənginləşir. Ünsiyyətə girən tərəflər arasında birgə fəaliyyət planının tərtibi onların hər birindən fəaliyyətin məqsəd və vəzifələrini bilməyi, obyektin spesifikasını, öz imkanlarını aydınlaşdırmağı tələb edir. Ünsiyyətin bu prosesə daxil olması onun iştirakçılarının "razılıq" və ya "narazılığı" həyata keçirmələrinə imkan verir. Bütün qeyd olunanlar ünsiyyət və fəaliyyətin bir- biri ilə üzvü şəkildə vəhdət təşkil etdiyini söyləməyə imkan verir (3, s.101).

İnformasiyanın verilməsini və qəbulunu təmin edən vasitələrin düzgün müəyyənləşdirilməsi kütləvi informasiya prosesinin əsas şərtlərindən biridir. Bununla əlaqədar olaraq aşağıdakı məsələlərin aydınlaşdırılması zəruridir: hansı kanallar vasitəsilə verilən məlumatları kimlər daha asan, düzgün qavraya bilər, nə tipli məlumatlar hansı kanallar vasitəsilə verilsə, daha təsirli olar və sairə. Bu baxımdan mimika, intonasiya, kinesika, proksimika tipləri xüsusi olaraq qeyd olunur.

Ünsiyyət prosesində müəyyən çətinliklər müşahidə olunur. Onlar adətən sosial və psixoloji xarakter daşıyır. Bu çətinliklər şəxsin müəyyən fərdi – psixoloji xüsusiyyətlərindən irəli gəlir. Tədqiqatçıların fikrincə, ünsiyyət prosesində əmələ gələn çətinlikləri aradan qaldırmaq üçün adamlarda ünsiyyət vərdişlərini aşılamaq və ünsiyyət mədəniyyətini artırmaq lazımdır. Müasir dövrdə ünsiyyət vərdişlərini aşılamağın təsirli vasitəsi kimi sosial-psixoloji treninqdən istifadə olunur. Sosial-psixoloji treninq prosesində başlıca vasitə kimi müxtəlif modifikasiyalarda tətbiq edilən qrup diskussiyasından və rollu oyunlardan istifadə olunur. Ünsiyyət prosesində insanlar bir-birinə müxtəlif yollarla psixoloji təsir göstərirlər (5, s. 99).

Pedaqoji ünsiyyətin yerinə yetirdiyi vəzifələrə görə onun informasiya mübadiləsi, başqa adamın davranışını tənzim etmək, şəxsiyyətlərarası anlama kimi növləri ayırd edilir. Tərəf mü-

qabilliyin xarakterinə və müəllimin ünsiyyətdəki mövqeyinə görə də pedaqoji ünsiyyətin növlərini müəyyənləşdirmək mümkündür. Pedaqoji ünsiyyət öz məzmununa və müəllimin şagirdə müraciət tərzinə görə təşkiledici, qiymətləndirici, intizam yaradan pedaqoji ünsiyyət növlərinə aid edilir. Müəllimlə şagirdlərin qarşılıqlı ünsiyyəti nə qədər səmərəli olarsa, kollektivin idarə olunması, onun üzvlərinin tərbiyə işinin təşkili də bir o qədər səmərəli olacaqdır.

Pedaqoji ünsiyyət zamanı müəllimin tutduğu mövqe onun ünsiyyətinə əsaslı təsir göstərir. Müxtəlif üsluba malik olan kommunikativ qarşılıqlı təsir müəllimin dərsdə şagirdlərlə ünsiyyətində bir sıra davranış modelinin meydana gəlməsinə səbəb olur (4.s.121). L.D. Stolyarenko şərti olaraq bu modellərə aşağıdakıları aid edir:

1. Diktator modeli ("Monblan"). Nəticədə psixoloji təmas olmur, buradan da şagirddə passivlik yaranır.

2. Təmassız model ("Çin səddi"). Nəticədə müəllimin şagirdlərlə zəif qarşılıqlı təsiri, şagirdlərin müəllimə qarşı laqeyd münasibəti özünü göstərir.

3. Fərqləndirici diqqət modeli ("Lokator"). Nəticədə müəllim-şagird (müəllim – tələbə) kollektivi sistemində qarşılıqlı təsir aktı pozulur.

4. Hiporefleks modeli ("Tetra quşu"). Nəticədə öyrədən və öyrənənlər arasında qarşılıqlı təsir praktik olaraq mövcud olmur.

5. Hiperrefleks modeli ("Hamlet"). Nəticədə müəllimin sosial-psixoloji həssaslığı güclənir, kəskinləşir, sinfin replikasına və hərəkətinə qeyri - adekvat reaksiya verir.

6. Dəyişməyən reaksiya modeli ("Robot"). Nəticədə pedaqoji qarşılıqlı təsirin səmərəsi aşağı olur.

7. Avtoritar model ("Mən özüm"). Nəticədə təlimin yaradıcı xarakteri itir.

8. Fəal qarşılıqlı təsir modeli ("İttifaq"). Nəticədə qarşıya çıxan tədris, təşkilati, etik problemlər birlikdə, hamının gücü ilə yaradıcı şəkildə həll olunur, daha məhsuldar hesab olunur.

Pedaqoji fəaliyyətə təzəcə başlayan gənc müəllimlər bəzən şagirdlərlə ünsiyyət yaratmaqda bir sıra çətinliklərlə qarşılaşırlar. O zaman gənc müəllim ruhdan düşür və özünə inamı zəifləyir. Bu sahədə aparılmış tədqiqatlara və məktəb təcrübəsinə istinad etməklə həmin çətinlikləri təxmini olaraq bu cür qruplaşdırmaq mümkündür:

1. Şagirdlərlə təmas yarada bilməməklə bağlı çətinliklər.

2. Şagirdin daxili psixoloji mövqeyini başa düşə bilməməklə bağlı çətinliklər.

3. Dərsdə ünsiyyəti idarə etməyin mürəkkəbliyi ilə bağlı çətinliklər.

4. Qarşılıqlı münasibəti yaratmağı və pedaqoji məqsəddən asılı olaraq onu dəyişdirməyi bacarmamaqla bağlı çətinliklər.

5. Nitq ünsiyyətindəki və özünün emosional münasibətlərini materiala köçürə bilməməklə bağlı çətinliklər.

Müəllimin pedaqoji fəaliyyəti yerinə yetirərkən qarşılaşdığı çətinlikləri müxtəlif göstəricilərə əsasən tiplərə ayırmaq mümkündür. Buraya çətinliyi doğuran səbəbin obyektiv və ya subyektiv olmasını, çətinliyin dərkolunma dərəcəsini, pedaqoji təsirin təşkili xüsusiyyətini, özünənəzarət və özünütənzimi və sairəni aid etmək olar (6, s. 58).

Təcrübə göstərir ki, müəllim, xüsusilə təzəcə fəaliyyətə başlayan müəllim bəzən qarşıya qoyduğu məqsəd sistemində ünsiyyəti düzgün qura bilmir, şagirdlərin şəxsiyyətini öyrənməyi bacarmır, stereotip qiymətləndirmədən istifadə edir və buna müvafiq olaraq bütün siniflərdə yaş fərqindən asılı olmayaraq, monoton ünsiyyətə gətirib çıxaran eyni cür qarşılıqlı təsir vasitəsindən istifadə edir. Adətən, ayrı-ayrı şagirdlərlə ünsiyyətdəki çətinliyi təsəvvür edə bilmir, sinfi ələ almaqda çətinlik çəkir, şagirdin sinifdə və ailədə nə kimi qeyri-formal rolu yerinə yetirdiyini bilmir, düzgün olmayan, mövcud şəraitlə uyğun gəlməyən pedaqoji rəhbərlik üslubunu tətbiq edir və s.

Ümumiyyətlə, müəllimin öz fəaliyyətində qarşılaşdığı prinsipial psixoloji çətinlikləri ümumiləşdirmiş olsaq, onların aşağıdakılardan ibarət olduğunu söyləyə bilərik:

– müəllim şagirdi bütövlükdə öz inkişaf perspektivində qavraya bilmir;

– öz əməyini pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət və şəxsiyyətlə vəhdətdə olan bir tam kimi görə bilmir;

– onları "müəllim-şagird" sistemi çərçivəsinə keçirə və qiymətləndirə bilmir.

Müəllim üçün daha geniş yayılmış və xarakterik çətinlik şagirdlərin psixi vəziyyətini və özünün pedaqoji fəaliyyət və ünsiyyəti səviyyəsinin diaqnostikasını verə bilməməkdən ibarət-

dir (7, s. 145). Ümumiyyətlə götürdükdə, müəllimin psixoloji çətinlikləri, onun müəyyən pedaqoji şəraitdə həyata keçirdiyi fəaliyyət zamanı təzahür edən gərginlik vəziyyəti ilə müəyyən edilir. Bu cəhəti nəzərə alaraq çətinliyin yaranma səbəbinin xarakteri ilə bağlı üç ümumi tipi müəyyənləşdirilir:

1. Xarici səbəblərdən irəli gələn psixoloji çətinlik.
2. Daxili səbəblərdən irəli gələn psixoloji çətinlik.
3. Daxili səbəblərdən törəmiş xarici səbəblərlə şərtlənən psixoloji çətinliklər.

Qeyd olunan psixoloji çətinliklərin hər biri digərindən fərqləndiyi kimi, onların aradan qaldırması və təsir formalarının seçilməsi də müxtəlif olmalıdır. Məsələn: xarici səbəblərdən irəli gələn psixoloji çətinlik baş verdikdə təlim və ya özünütəlimdən istifadə olunmalıdır. Daxili səbəblərdən irəli gələn psixoloji çətinlik baş verdikdə müəllimlə psixoloji iş aparılmalıdır. Daxili səbəblərdən törəmiş xarici səbəblərlə şərtlənən psixoloji çətinlik baş verdikdə əməyin səmərəliliyini yüksəltmək məqsədilə yaranmış problemlə əlaqədar məktəb müəllimlərinin birgə işi həyata keçirilməlidir.

**Problemin aktuallığı.** Ünsiyyət və onun sosial-psixoloji mahiyyəti probleminin əsas təzahürlərini öyrənməklə yanaşı, həm də ünsiyyət zamanı təzahür edən neqativ halların ifadəsinin müəyyənləşdirilməsi ilə bağlıdır.

**Problemin elmi yeniliyi** ünsiyyət və onun sosial-psixoloji mahiyyəti probleminin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində həmin problemlərin təhlilinə xüsusi diqqət yetirməkdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

**Ədəbiyyat:**

1. Bayramov, Ə.S. Sosial psixologiya./ Ə.S. Bayramov, Ə.Ə. Əlizadə – Bakı: Qamma-servis, – 2003.
2. Əliyev, R.İ. Tərbiyə psixologiyası. – Bakı: Nurlan, – 2006.
3. Həmzəyev, M.Ə. Ünsiyyətin psixologiyası. / M.Ə. Həmzəyev, S.F. Əmiraslanova – Bakı: Nurlan, – 2007
4. Həmzəyev, M.Ə. Pedaqoji psixologiya. – Bakı: Maarif, – 2003.
5. Батюта, М.Б. Возрастная психология . – М: Логос, – 2013.
6. Ильин, Е.П. Психология общения и межличностных отношений. – СПб: Питер, – 2013, с.
7. Столяренко, Л.Д. Психология общения: Учебник. – Д: Феникс, – 2013, с.

**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** *psix.ü.elm.dok., prof.* **Q.N. Qəhrəmanova,**
*psix.ü.fəls.dok., dos.* **S.N. Heydərova**
**Redaksiyaya daxil olub:** 04.04.2022.